**“ZƏFƏRƏ APARAN İDEYA”**

**adlı layihə müsabiqəsinin**

# ƏSASNAMƏSİ

**Bakı – 2022**

## 1. Ümumi müddəalar

**1.1** “Zəfərə aparan ideya” adlı layihə müsabiqəsi (bundan sonra - müsabiqə) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərancamı ilə təsis edilmiş “8 Noyabr-Zəfər Günü” münasibətilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (bundan sonra – Dövlət Komitəsi) tərəfindən keçirilir.

**1.2** Bu Əsasnamə müsabiqənin məqsədlərini, şərtlərini, mərhələlərini və iştirakçıların mükafatlandırılması qaydalarını müəyyən edir.

## 2. Müsabiqənin məqsədi

**2.1** Uşaqların şəxsiyyət və vətəndaş kimi formalaşması, onların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması;

**2.2** Uşaqların maraqlarına toxunan məsələlərdə onların iştirakının təmin edilməsi;

**2.3** Uşaqların intellektual inkişafının stimullaşdırılması, onlarda sərbəst düşünmə və problem həlletmə qabliyyətinin formalaşdırılması;

**2.4** İstedadlı uşaqların cəmiyyətə təqdim edilməsi.

## 3. Müsabiqənin şərtləri

**3.1** Müsabiqədə 14-18 yaş kateqoriyalı uşaqlar öz layihələri ilə iştirak edir.

**3.2** İçtirakçılar uşaq inkişafı və hüquqlarının müdafiəsi ilə bağlı hazırladıqları layihəni 27 oktyabr 2022-ci il tarixədək Dövlət Komitəsinin rəsmi səhifəsində yerləşdirilmiş link vasitəsilə elektron müraciət formasına yükləyərək göndərir.

**3.3** Müsabiqədə uşaq hüquqlarının müdafiəsi ilə bağlı aşağıda qeyd olunmuş istiqamətlər üzrə hazırlanmış layihələr təqdim edilə bilər:

- uşaqların inkişafı;
- erkən nikahların qarşısının alınması;
- uşaq əməyinin istismarı ilə mübarizə;
- uşaqların zorakılıqdan və bullinqdən müdafiəsi;
- uşaqların zərərli informasiyadan mühafizəsi;

- təhsildən yayınma hallarının qarşısının alınması;
- küçə həyatına məruz qalmış uşaqların reabilitasiyası;
- sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası;

**3.4** Layihələr Microsoft Power Point proqramında hazırlanmalı və 3 dəqiqədən artıq olmamalıdır.

## 4. Müsabiqənin mərhələləri

**4.1** Müsabiqə iki mərhələdən ibarətdir.

**4.2** Birinci mərhələdə onlayn təqdim olunmuş layihələr içərisindən 10 (on) yaradıcı təqdimat seçilir.

**4.3** İkinci mərhələyə təqdim edilmiş 10 (on) layihə münsiflər heyəti tərəfindən 10 ballıq sistem əsasında qiymətləndirilir. Ən yüksək bal toplamış 3 (üç) layihə qalib qismində elan olunacaqdır.

**4.4** Layihələr aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

- mövzu üzrə məsələnin qoyuluşu;
- məsələnin həlli istiqamətində irəli sürülən ideya;
- layihənin əsaslandırılması;
- layihənin tərtibatı;
- kreativlik.

## 5. İştirakçıların mükafatlandırılması qaydaları

**5.1.** Münsiflər tərəfindən səsvermə yolu ilə müəyyən edilmiş 3 (üç) ən kreativ layihənin sahibi diplomla yanaşı aşağıdakı hədiyyələrlə təltif edilir:

- I yerin qalibi noutbuk;
- II yerin qalibi planşet;
- III yerin qalibi planşet.

**5.2.** Fəalığı ilə seçilən digər iştirakçılar diplomla təltif edilirlər.